# Biz kimik?

TechArt şirkəti korporativ müştərilər (B2B) üçün təhlükəsizlik və texnoloji həllər sahəsində ixtisaslaşmış peşəkar xidmət təminatçısıdır. Biz bizneslərin təhlükəsizlik ehtiyaclarını dərindən analiz edərək, onların fəaliyyətinə uyğun fərdiləşdirilmiş və effektiv sistemlər təqdim edirik.

Şirkətimiz müasir mühafizə, yanğın siqnalizasiya, havalandırma, video müşahidə və keçidə nəzarət sistemlərinin layihələndirilməsi, quraşdırılması, zəif axın sistemlərini və texniki dəstəyi üzrə kompleks xidmətlər göstərir. Təqdim etdiyimiz həllər yalnız təhlükəsizliyi təmin etmir, eyni zamanda əməliyyat proseslərinin daha səmərəli və nəzarətli idarə olunmasına imkan yaradır.

*TechArt olaraq əsas prioritetimiz – bizneslər üçün etibarlı, dayanıqlı və uzunmüddətli təhlükəsizlik infrastrukturu qurmaqdır.*

**Daha ətraflı tanış ol:**

# Missiyamız





Biz müasir texnologiyalar və strateji yanaşma ilə obyektlərin təhlükəsizliyini maksimum səviyyədə təmin edirik. Hər bir layihəni beynəlxalq standartlara uyğun planlayır, quraşdırma və texniki xidmət proseslərini yüksək peşəkarlıqla idarə edirik. Eləcə də innovativ həllərimiz sayəsində təhlükəsizlik və idarəetməni optimallaşdırır, etibarlı və effektiv infrastruktur yaradırıq.

# Əsas yanaşmamız

### 1) Beynəlxalq standartlara uyğun sistemlər

Şirkətimiz tərəfindən təqdim olunan təhlükəsizlik və mühafizə sistemləri SNIP, NFPA, EN və VDS kimi beynəlxalq standartlara uyğun şəkildə layihələndirilir və tətbiq edilir.

### 2) Kompleks təhlükəsizlik həlləri

Yanğın təhlükəsizlik sistemləri, CCTV video müşahidə, keçidə nəzarət, oğurluq siqnalizasiyası, səs və elan sistemləri, eləcə də strukturlaşdırılmış kabel infrastrukturu üzrə kompleks həllər təqdim edilir.

### 3) Layihələndirmədən servizə qədər tam xidmət

Bütün sistemlər layihələndirmə, quraşdırma, inteqrasiya və texniki servis mərhələləri ilə peşəkar şəkildə həyata keçirilir və müasir texnologiyalar əsasında tətbiq olunur.

# Biz hansı xidmətləri təklif edirik?

techart
TEXNOLOGIYA İNCƏSƏNƏTDİR



1. Yanğın təhlükəsizlik sistemləri



2. Siqnalizasiya sistemləri



3. Keçidlərə nəzarət sistemləri



4. Video müşahidə sistemləri



5. Strukturlaşdırılmış kabel sistemi

Bakı şəhəri, AZ 1010, Nizami Nərimanov 21
office@techart.az
www.techart.az
(012) 555 75 75
(099) 555 75 75

# Statistikamız

**2000+ Müştəri**
*Bizneslərin etibarlı tərəfdaşı*

**15+ Xidmət**
*Kompleks təhlükəsizlik həlləri*

**10+ Sektor üzrə təcrübə**
*Müxtəlif sənaye sahələrində uğurlu layihələr*

**500+ Uğurlu Korporativ Layihə**
*Hər layihə bir uğur hekayəsidir*

# Müştəri portfoliosu

Fərqli sənaye və sektorlar üzrə fəaliyyət göstərən korporativ müştərilərimiz uzunmüddətli tərəfdaşlıqdan məmnundurlar. Təcrübəli komandamız hər bir müştərinin ehtiyaclarını diqqətlə analiz edir və fərdi, innovativ təhlükəsizlik həlləri təqdim edir. Bu yanaşma onların əməliyyat səmərəliliyini və təhlükəsizliyini daim təmin edir.

# Yanğın təhlükəsizlik sistemləri



Yanğın təhlükəsizlik sistemləri obyektlərdə risklərin erkən mərhələdə aşkarlanması üçün nəzərdə tutulub.

Sistemlər operativ xəbərdarlıq və siqnal funksiyası ilə təhlükəni minimal səviyyəyə endirir. Müasir sensorlar və detektorlar sayəsində yanğın hadisələri dərhal aşkar olunur və müvafiq tədbirlər həyata keçirilir.

Avtomatik yanğınsöndürmə sistemləri yanğını ilkin mərhələdə aşkarlayaraq insan müdaxiləsi olmadan söndürür və ya nəzarət altına alır. Ən geniş istifadə olunan növlər sulu, qazlı, köpüklü, tozlu, aerosol və mətbəx tipli sistemlərdir.

Bu həllər ofislər, anbarlar, server otaqları, sənaye və elektrik sahələri, həmçinin mətbəxlərdə effektiv qorunma təmin edir.



**Daha ətraflı tanış ol:**

Bakı şəhəri, AZ 1010, Nizami Nərimanov 21
office@techart.az
www.techart.az
(012) 555 75 75
(099) 555 75 75

# Video müşahidə sistemləri



Video müşahidə sistemlərində istifadə olunan kamera növlərinin düzgün seçimi obyektin təhlükəsizlik səviyyəsinin artırılmasında strateji rol oynayır. Müasir həllər çərçivəsində dome, bullet, turret, PTZ, fisheye, box, termal və ANPR kameraları müxtəlif ehtiyaclara uyğun olaraq tətbiq edilir.

Daxili məkanlar üçün estetik, funksional dome və turret kameralar, açıq ərazilər və perimetr mühafizəsi üçün isə bullet kameralar effektiv həll təqdim edir. Böyük ərazilərin dinamik nəzarəti üçün PTZ, geniş sahələrin panoramik izlənməsi üçün fisheye kameralar üstünlük təşkil edir.

Xüsusi təhlükəsizlik tələbləri olan obyektlərdə box və termal kameralar, nəqliyyat axınının idarə olunması və giriş-çıxış nəzarəti üçün isə ANPR sistemləri istifadə olunur. Bu texnologiyaların düzgün inteqrasiyası bizneslər üçün etibarlı, çevik və yüksək effektiv təhlükəsizlik infrastrukturu formalaşdırır.



**Daha ətraflı tanış ol:**

# Keçidə nəzarət sistemləri

techart
TEXNOLOGİYA İNCƏSƏNƏTDİR

Access control (girişə nəzarət) sistemləri obyektlərdə giriş-çıxışın tənzimlənməsi, icazəsiz keçidlərin qarşısının alınması və ümumi təhlükəsizlik mühitinin gücləndirilməsi üçün tətbiq olunan müasir texnoloji həllərdir. Bu sistemlər vasitəsilə istifadəçilərin identifikasiyası həyata keçirilir və yalnız səlahiyyətli şəxslərə müəyyən zonalara giriş imkanı verilir.

Müasir access control həllərinə kartla giriş (RFID), PIN kod, biometrik sistemlər, turniketlər, avtomatik qapı və baryer sistemləri daxildir. Kart və PIN əsaslı sistemlər sadə və effektiv idarəetmə təqdim etdiyi halda, biometrik texnologiyalar yüksək təhlükəsizlik tələb olunan obyektlər üçün üstünlük təşkil edir.

Turniket və baryer sistemləri fiziki nəzarəti təmin edərək giriş-çıxışı daha sistemli şəkildə idarə edir. Eyni zamanda bu sistemlər video müşahidə və yanğın təhlükəsizlik sistemləri ilə inteqrasiya olunaraq daha geniş və avtomatlaşdırılmış təhlükəsizlik infrastrukturu yaradır.

Bu texnologiyaların düzgün tətbiqi bizneslər üçün təhlükəsiz, nəzarət olunan və operativ idarə olunan mühit formalaşdıraraq ümumi əməliyyat effektivliyini artırır.



**Daha ətraflı tanış ol:**

# Oğurluq və mühafizə siqnalizasiyası sistemləri

Mühafizə siqnalizasiya sistemləri obyektlərdə icazəsiz girişlərin qarşısının alınması, risklərin erkən aşkarlanması üçün tətbiq olunan etibarlı təhlükəsizlik həlləridir. Sistem müxtəlif detektorlar vasitəsilə hərəkət və müdaxilələri müəyyən edərək məlumatı mərkəzi panelə ötürür.

Əsas detektor növlərinə hərəkət (PIR), maqnit kontakt, şüşə qırılma, vibrasiya, həmçinin kombinə detektorlar daxildir. Hərəkət detektorları geniş sahələri nəzarətdə saxlayır, maqnit kontaktlar qapı və pəncərələrin açılmasını qeydə alır, şüşə qırılma detektorları isə səs və vibrasiya əsasında işləyir.

Eləcə də kombinə detektorlar daha dəqiq nəticə təqdim edərək yalnış siqnalları minimuma endirir və mürəkkəb obyektlər üçün effektiv həll yaradır.

Beləliklə, düzgün tətbiq nəticəsində obyektin daxili və perimetr təhlükəsizliyi vahid sistem çərçivəsində təmin olunur.



**Daha ətraflı tanış ol:**

# Struktur kabel sistemləri

techart
TEXNOLOGİYA İNCƏSƏNƏTDİR

Struktur kabel sistemi bina və obyektlərdə data, telefon, video müşahidə, access control və digər zəif axın sistemlərini vahid kabel infrastrukturu ilə idarə etməyə imkan verir.

Sistem kommunikasiya xətlərini standartlaşdırır, nizamlı təşkil edir və gələcək genişlənmə ilə texniki xidmətləri asanlaşdırır. Layihələndirmə beynəlxalq standartlara (TIA/EIA, ISO/IEC) uyğun həyata keçirilir.

Sistemin əsas komponentlərinə backbone (əsas) kabel xətti, horizontal kabel sistemi, işçi zonası, telekommunikasiya və avadanlıq otaqları daxildir. Backbone kabel mərtəbələr və binalar arasında əlaqəni təmin edir, horizontal kabel isə istifadəçi nöqtələrini paylayıcı şkaflara bağlayır.

Əsasən UTP və fiber optik kabellər istifadə olunur. Bütün kabellər patch panel, keystone jack və patch cord vasitəsilə birləşdirilir.

Universal və modul quruluşu sayəsində müxtəlif sistemlər paralel işləyə bilir, idarəetmə sadələşir və gələcəkdə genişləndirmə asan olur.



**Daha ətraflı tanış ol:**

techart
TEXNOLOGİYA İNCƏSƏNƏTDİR

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜR EDİRİK!

Bakı şəhəri, AZ 1010, Nizami Nərimanov 21
office@techart.az
www.techart.az
(012) 555 75 75
(099) 555 75 75